**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**İSMAYIL SURXAY oğlu MİRHADİ**

# MƏRKƏZİ BANKIN ÖLKƏ İQTİSADİYYATININ STABİL İNKİŞAFINDA ROLUNUN YÜKSƏLDİLMƏSİ YOLLARI

İxtisas: 5301.01 «Daxili fiskal siyasət və dövlət maliyyəsi»

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I - 2018**

Dissertasiya işi "Qərbi Kaspi Universiteti"ndə yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**Mübariz Məmmədhüseyn oğlu Bağırov** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**Nizami Nəcəfqulu oğlu Xudiyev** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Ağanemət Qadir oğlu Ağayev** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası** |

Müdafiə "26" sentyabr 2018-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyət göstərən D.02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "25" avqust 2018-ci ildə göndərilmişdir.

**D 02.051 dissertasiya**
**şurasının elmi katibi,**
**i.ü.f.d., dos.** **M.M.Sadıqov**

# G İ R İ Ş

**Mövzunun aktuallığı**. Ölkə iqtisadiyyatının inkişafı onun struktur elementlərinin fəaliyyətindən, onların əldə etdiyi nəticələrdən asılı olur. Maliyyə, vergi, büdcə, bank, gömrük və s. sistemlərin qarşılıqlı vəhdəti və onların üzvi surətdə fəaliyyət göstərməsi ölkə iqtisadiyyatının inkişafını şərtləndirir. Qeyd edilən hər bir sistemin fəaliyyət parametrləri, onların yerinə yetirdiyi funksiya və vəzifələr ölkə iqtisadiyyatında ayrı-ayrı məqsədlərin icra olunmasına xidmət edir. Bu baxımdan ölkə iqtisadiyyatının inkişaf etdirilməsində Mərkəzi Bankın rolu xüsusi əhəmiyyətə malikdir.

Dünya təcrübəsi göstərir ki, mərkəzi banklar ölkə iqtisadiyyatının inkişafında pul dövriyyəsinin möhkəmləndirilməsi, milli pul vahidinin müdafiəsi, onun dayanaqlığının təmin edilməsi, onun xarici ölkələrin valyutalarına nisbətən məzənnəsinin təyin edilməsi, pul-kredit siyasətinin ayrı-ayrı alətlərindən istifadə olunması və s. vasitələrlə təsir edərək bütövlükdə iqtisadiyyatın inkişafını təmin edir.

Beynəlxalq bank təcrübəsində formalaşmış ənənələrə görə Mərkəzi Bank ölkə iqtisadiyyatının həm idarə edilməsində, həm inkişaf etdirilməsində, həm də tənzimlənməsində özünəməxsus xarakterləri ilə ölkənin emissiya mərkəzi olmaqla, banklar bankı olmaqla, hökumətin bankiri olmaqla, baş hesablaşma Mərkəzi olmaqla yaxından iştirak edir və iqtisadiyyatda həlledici rola malikdir. Qeyd edilən vasitələrlə Mərkəzi Bank iqtisadiyyatın aparıcı strukturları olan banklarla çoxşaxəli əməliyyatlar aparır, normativlər əsasında müəyyən edilmiş kassa ehtiyatlarını qoruyub saxlayır, onlara mövcud qaydalar əsasında kreditlər verir, kredit təşkilatlarının fəaliyyətini tənzimləyir, dövlətin pul-kredit sferasındakı siyasətini icra edir, dövlətin qiymətli kağızlarını yerləşdirir, ölkə iqtisadiyyatını zəruri pul və kredit kütləsi ilə təmin edir və s.

İqtisadi inkişafın müasir, böhranlı vəziyyətində mərkəzi bankların rolu daha da artmışdır. Çünki ölkə iqtisadiyyatında həm makro, həm də mikrosəviyyəsində həll edilən bütün vəzifələrin kəsişən yeri məhz Bank sistemidir. İqtisadi dinamikanın təmin edilməsinə, ümumi daxili məhsulun həcminin artırılmasına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, inflyasiyanın aşağı salınmasına daha böyük zərurət olduğu halda Mərkəzi Bank iqtisadiyyatın normal vəziyyətə gətirilməsində həlledici rol oynaya bilər. Məhz bu səbəblərdən tədqiqat mövzusu «Mərkəzi Bankın ölkə iqtisadiyyatının inkişafında rolunun yüksəldilməsi» kimi seçilmişdir.

Ölkədə aparılan islahatlar, struktur dəyişiklikləri, idarəetmədəki modernləşmə, sosial yeniliklər və s. həyata keçirilməsi mövcud maliyyə resurslarından səmərəli istifadə edilməsini tələb edir. Onlardan istifadənin düzgün və operativ təşkil olunması Mərkəzi Bankın apardığı siyasətin çevikliyindən asılıdır.

Mərkəzi Bankın fəaliyyətinin bütün parametrləri və inkişaf istiqamətləri öz



əksini «Milli iqtisadiyyat və iqtisadiyyatın xüsusi sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri» haqqında Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli sərəncamında tapmışdır. Burada əsas vəzifə kimi müasir dövrdə iqtisadi və siyasi inkişafın tələb etdiyi ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, xarici amillərdən asılılığın azaldılması, qeyri-neft sektorunun əsaslı surətdə inkişaf etdirilməsi və insan kapitalından səmərəli istifadə edilməsi qoyulmuşdur ki, onların da yerinə yetirilməsində Mərkəzi Bank müstəsna rol oynayır.

Qeyd edilən vəzifələrin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"-ndə nəzərdə tutulan kompleks tədbirlər planının icrası çox zəruridir. Burada qısa, orta və uzunmüddətli dövr üçün nəzərdə tutulan vəzifələr müəyyən edilmiş, əsas hədəf və prioritetlər əks olunmuşdur. Onlar sağlam maliyyə sisteminin forlmalaşdırılmasını, maliyyə bazarlarının dinamik inkişafını, maliyyə infrastrukturunun daha da gücləndirilməsini, bu sektorda reskturkturizasiya, tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsini və s. əhatə edir.

Ölkədə həyata keçirilən islahatların səmərəliliyinin yüksəldilməsi iqtisadi inkişafın dayanıqlılığının və davamlılığının təmin edilməsi, makrosəviyyədə qarşıda duran vəzifələrin uğurla icra olunması və s. ölkə iqtisadiyyatının inkişafında Mərkəzi Bankın rolunun yüksəldilməsi vasitəsilə mümkündür.

**Mövzunun öyrənilməsi səviyyəsi.** Mərkəzi bankların yaranması, onun iqtisadi dinamikadakı rolu, onun mahiyyəti, funksiya və vəzifələri, iqtisadi islahatların aparılmasındakı əhəmiyyəti və s. aspektlərə dair nəzəri və metodoloji, həmçinin təcrübi məsələlər həm klassik iqtisadçıların, həm də müasir dövrün həm xarici, həm də Azərbaycan alimlərinin tədqiqat əsərlərində araşdırılmışdır.

Bank sisteminin, xüsusən də Mərkəzi bankların fəaliyyətinə və onun iqtisadi inkişafa təsir məsələlərinə dair tədqiqatlara azərbaycanlı alim və iqtisadçıların araşdırmalarında da rast gəlmək olur. Belə ki, Mərkəzi Bankın fəaliyyətinin müxtəlif parametrlərinə dair məsələlər öz əksini Z.Səmədzadənin, D.A.Bağırovun, M.M.Bağırovun, Z.F.Məmmədovun, Ş.Abdullayevin, E.Sadıqovun, A.Kərimovun, R.Bəşirovun, R.Əsgərovanın, A.Babayevin, Z.İbrahimovun və s. əsərlərində tapmışdır. Onlar Mərkəzi Bankın Azərbaycanın müstəqilliyi dövründəki fəaliyyətinə dair əsas parametrləri Mərkəzi Bankın ümumi xarakteristikasını, onun funksiya və vəzifələrini, pul-kredit fəaliyyətinin tənzimlənməsini, Mərkəzi Bankın strukturunu, onun idarə olunması üsullarını, Mərkəzi Bank sistemlərinin inkişaf mərhələlərini, bu sistemdə dövlətin iştirakı məqsədlərini və s. özündə əks etdirən dəyərli tədqiqat əsərləri yaratmışlar.

Avropa iqtisad məktəbinin klassikləri olan A.Smitin, D.Rikardonun, K.Marksın, C.Keynsin, N.Piqunun, C.Xiksin, A.Marşalın, C.F.Neymanın, L.Valrasın, P.S.Rouzun, Ç.F.Sinkinin, Y.T.Koxun, K.D.Valeravenin, K.Ç.Bartronun və s. Mərkəzi Bankın mahiyyətinə, funksiya və vəzifələrinə, onun iqtisadiyyatdakı roluna,

fəaliyyətinin sosial və iqtisadi nəticələrinə dair çoxsaylı tədqiqatlarına rast gəlmək olur. Qeyd edilən tədqiqatçı alimlər yaşadıqları dövrdə Mərkəzi Banka aid olan, onun xarakterik xüsusiyyətlərini əks etdirən çoxsaylı məsələləri ümumiləşdirən əsərlər yaratmışlar.

SSRİ dağıldıqdan sonra yeni yaranmış müstəqil dövlətlərin hamısında, o cümlədən Azərbaycanda da mülkiyyət münasibətləri köklü surətdə dəyişdi, iqtisadi sistemdə aparıcı rola malik olan müstəqil maliyyə, büdcə, vergi, Bank, gömrük və s. sistemləri yarandı. Bazar iqtisadiyyatı şəraitində fəaliyyətə başlayan bu sistemlərin hər birinin fəaliyyətinə dair xeyli sayda tədqiqatlar meydana gəldi. Bank sisteminin yaranması, onun mahiyyəti, strukturu, funksiya və vəzifələri, iqtisadiyyatdakı rolu və s. məsələlər rus alimləri olan V.İ.Kolesnikovun, Q.H.Beloqlazovanın, L.P.Krolivetskayanın, M.V.Romanovskinin, İ.T.Balabanovun, O.İ.Lavruşinin, A.Q.Qryaznovanın, Q.S.Panovanın, V.M.Usoskinin və s. tədqiqat əsərlərində rast gəlmək olur.

Sadalanan alimlər tərəfindən yaradılmış dəyərli tədqiqat əsərlərinin yüksək səviyyədə nəzəri, metodoloji və təcrübi əhəmiyyətə malik olduğunu qeyd etməklə yanaşı, nəzərdən qaçırmaq olmaz ki, hələ də Mərkəzi Bankın ölkə iqtisadiyyatının idarə edilməsində, onun inkişafında rolunun yüksəldilməsi məqsədilə nəzəri məsələlər, dünya təcrübəsi, onun fəaliyyətinin normativ-hüquqi bazası, ölkə iqtisadiyyatının idarə edilməsindəki rolunun müasir vəziyyəti, bu idarəetmədəki rolunun qiymətləndirilməsi, onun bu sahədəki rolunun yüksəldilməsinin əsas istiqamətləri, iqtisadiyyata təsir üsullarının dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanları kompleks halda tədqiq olunmamışdır. Məhz bu, qeyd edilənlər tərəfimizdən seçilmiş tədqiqat mövzusunun aktuallığını və təcrübi əhəmiyyətini əks etdirməklə tədqiqatın predmeti kimi müəyyən edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqat işinin əsas məqsədi ölkə iqtisadiyyatının idarə edilməsində Mərkəzi Bankın rolunun yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən, bunun üçün zəruri olan məsələlərin tədqiqindən və elmi cəhətdən əsaslandırılmış və təcrübi cəhətdən reallaşdırılması mümkün olan və iqtisadiyyata səmərə verə biləcək təkliflərin irəli sürülməsindən ibarətdir.

Qarşıya qoyulan məqsədlərə çatmaq üçün dissertasiya işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Ölkə iqtisadiyyatının stabil inkişafında Mərkəzi Bankın rolunun qanunauyğunluqlarının və əsas xüsusiyyətlərinin araşdırılması və əhəmiyyətinin əsaslandırılması;
- Mərkəzi Bankın fəaliyyətinin nəzəri əsaslarının tədqiq edilməsi, ona münasibət bildirilməsi və təkliflər verilməsi;
- Mərkəzi Bankın fəaliyyətinin dünya təcrübəsinin aparıcı dövlətlər timsalında təhlil olunması;
- Mərkəzi Bankın fəaliyyətinin normativ-hüquqi bazasının hazırki vəziyyətinin araşdırılması və təhlil edilməsi, onun təkmilləşdrilməsinə dair təkliflər verilməsi;



- İqtisadiyyatın stabil inkişafında Mərkəzi Bankın rolunun müasir vəziyyətinin təhlil edilməsi və onun yaxşılaşdırılması istiqamətində təkliflərin verilməsi;
- İqtisadiyyatın inkişaf etdirilməsində Mərkəzi Bankın rolunun qiymətləndirilməsi və onun yüksəldilməsi istiqamətində təkliflərin irəli sürülməsi;
- Ölkə iqtisadiyyatında sabit inkişafının təmin edilməsində Mərkəzi Bankın rolunun yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və onların reallaşdırılması istiqamətində təkliflərin verilməsi;
- İqtisadiyyatın stabil inkişafında Mərkəzi Bankların fəaliyyətinin dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanlarının araşdırılması və təkliflər verilməsi.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı seçilmişdir.

**Tədqiqatın predmeti.** Azərbaycan Respublikasında Mərkəzi Bankın iqtisadiyyatın inkişafındakı rolunun təhlili, səmərəliliyinn qiymətləndirilməsi və bununla əlaqədar olaraq iqtisadi subyektlər arasında formalaşan iqtisadi münasibətlərin məcmusudur.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** – Azərbaycan Respublikası Prezidentinin Mərkəzi Bankın fəaliyyətinə dair fərman və sərəncamları, Mərkəzi Bankın fəaliyyətinə dair qanun, Azərbaycan Respublikası Nazirlər Kabineti və Milli Məclis tərəfindən Mərkəzi Bankın fəaliyyətinə dair qəbul edilmiş qərar və qanunlar, Azərbaycan Mərkəzi Bankı və «Maliyyə bazarlarına nəzarət palatası» tərəfindən qəbul olunmuş normativ-hüquqi aktlar, Azərbaycan və xarici ölkə mütəxəssislərinin Mərkəzi Bankın fəaliyyətinə həsr olunmuş elmi əsərləri, monoqrafiyaları və digər elmi-tədqiqat işləri təşkil edir.

Tədqiqat aparılarkən iqtisadi inkişafa Mərkəzi Bankın təsir üsullarının təhlil olunması, bu üsulların səmərəliliyinin qiymətləndirilməsi və davamlı inkişafda Mərkəzi Bankın rolunun müəyyənləşdirilməsi məqsədilə sistemli kompleks, pozitiv-praqmatik, statistik, müqayisəli təhlil, sintez, balans və digər tədqiqat üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası**. Tədqiqat aparılarkən müəyyən edilmiş məqsəd və vəzifələrə çatmaq üçün Azərbaycan Respublikası Statistika Komitəsinin və Mərkəzi Bankın statistik materiallarından, illik məcmuələrindən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir**:

-Nəzəri və metodoloji baxışların təhlili əsasında stabil inkişafın rolu, mahiyyəti araşdırılmış və onun zəruriliyi əsaslandırılmışdır;

- Ölkə iqtisadiyyatında stabil inkişafın təmin edilməsində Mərkəzi Bankın fəaliyyətinin nəzəri əsasları tədqiq olunmuş, fəaliyyət prinsipləri müəyyənləşdirilmiş, konseptual yanaşma əsasında dünya təcrübəsi öyrənilmiş, onun təkmilləşdirilməsi istiqamətində təkliflər irəli sürülmüşdür;

-Azərbaycan Respubikasının iqtisadiyyatında stabil inkişafın təmin edilməsi prosesində Mərkəzi Bankın rolunun müasir vəziyyəti təhlil edilmiş, onun

təkmilləşdirilməsi istiqamətində təkliflər verilmişdir;

- İqtisadi sabitliyin təmin edilməsi üçün Mərkəzi Bankın pul alətləri vasitəsilə iqtisadiyyata təsiri qiymətləndirilmiş, zəruri parametrlərin yüksəldlməsi üzrə təkliflər irəli sürülmüşdür;
- Geniş təhlil və qiymətləndirmə əsasında stabil inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun yüksəldilməsinin konkret yolları müəyyən edilmiş, onların həyata keçirilməsi üçün konkret təkliflər verilmişdir;
- Ölkə iqtisadiyyatında stabil inkişafın davamlılığının təmin edilməsi məqsədi ilə perspektiv inkişafın hədəf və prioritetləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya üzrə aparılan tədqiqat nəticəsində sistemləşdirilən nəzəri-konseptual müddəalar, irəli sürülən təklif və tövsiyələr Azərbaycanda Mərkəzi Bankın fəaliyyətinin təşkili, idarə edilməsi və tənzimlənməsi prosesində, iqtisadiyyatın böhran vəziyyətindən çıxarılmasında, bu istiqamətlərdə tətbiq olunacaq proqram və proqnozların hazırlanmasında, bank fəaliyyətinə dair dövlət siyasətinin tərtib olunmasında geniş istifadə oluna bilər.

Bununla yanaşı, tədqiqatın materialları bütövlükdə bakalavriat səviyyəsində «Bank işi», «Pul və Banklar», magistratura səviyyəsində «Müasir maliyyə kredit institutlarının fəaliyyət istiqamətləri», «Pul-kredit sisteminin nəzəri və əməli problemləri» adlı fənlərin tədrisində geniş istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın nəticələri və əsas nəzəri müəddəaları 2014-2016-cı illər ərzində beynəlxalq və respublika əhəmiyyətli konfrans, simpozium və seminarlarda məruzə olunaraq müzakirə edilmişdir.

**Tədqiqat nəticəsində dərc olunmuş materiallar.** Tədqiqat nəticəsində dissertasiya işi üzrə ümumi həcmi 5 çap vərəqi olmaqla, 7 adda elmi məqalə və tezislər çap olunmuşdur.

**Tədqiqat işinin tutumu və quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla və 140 səhifəni əhatə etməklə 11 cədvəl, 10 qrafik və şəkilləri özündə birləşdirir. Ədəbiyyat siyahısı 175 mənbədən ibarətdir.

### Dissertasiya işinin mündəricatı

**Giriş**

**I Fəsil. Ölkə iqtisadiyyatının stabil inkişafında Mərkəzi Bankın fəaliyyətinin nəzəri-metodoloji əsasları**

1.1. Ölkə iqtisadiyyatının stabil inkişafında Mərkəzi Bankın rolu və əhəmiyyəti

1.2. Mərkəzi Bankın fəaliyyətinin nəzəri əsasları

1.3. Mərkəzi Bankın fəaliyyətinin dünya təcrübəsi

**II Fəsil. Azərbaycanda iqtisadiyyatın stabil inkişafında Mərkəzi Bankın rolunun müasir vəziyyəti və onun qiymətləndirilməsi**

2.1. Mərkəzi Bankın fəaliyyətinin hüquqi əsasları

2.2. Ölkə iqtisadiyyatında stabil inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun təhlili

2.3. Stabil iqtisadi inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun və fəaliyyətinin qiymətləndirilməsi

**III Fəsil. Ölkə iqtisadiyyatının stabil inkişafında Mərkəzi Bankın rolunun yüksəldilməsi istiqamətləri**

3.1. Stabil inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun yüksəldilməsinin əsas istiqamətləri

3.2. İqtisadiyyatın stabil inkişafında mərkəzi bankların dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanları

3.3. Ölkə iqtisadiyyatında stabil inkişafın təmin edilməsinin strateji hədəf və prioritetləri.

**Nəticə**

**İstifadə olunmuş ədəbiyyat**

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**1. Ölkə iqtisadiyyatının idarə edilməsində Mərkəzi Bankın rolu və əhəmiyyətinin tədqiqi.** Müasir dövrümüzdə Mərkəzi bankların əsas vəzifəsi dövlətin iqtisadi inkişaf strategiyasına uyğun olaraq pul siyasətinin aparılmasıdır. Sözsüz ki, pul siyasəti çərçivəsində inflyasiyaya və pul dövriyyəsinə nəzarətin həyata keçirilməsi, qiymət sabitliyinin qorunması ölkə iqtisadiyyatının idarə edilməsinə birbaşa təsir edir. Mərkəzi bankların apardığı siyasət müxtəlif dövlətlərdə müəyyən qədər fərqlənsə də, onları birləşdirən əsas məqam pul siyasətinin aparılması, maliyyə sabitliyinin qorunması, inkişaf və rifah üçün dövlət siyasətinin dəstəklənməsi və dövlət gəlirlərinin artırılması məqsədlərinə xidmət edərək iqtisadiyyatın idarə edilməsində birbaşa iştirak etməsidir.

Mərkəzi banklar pul-kredit siyasəti və maliyyə alətlərindən istifadə edərək, bank sistemində tənzimləmə və nəzarət funksiyalarını yerinə yetirərək öz vəzifələrini həyata keçirir. Mərkəzi bankların pul siyasətini aparmaqda əsas məqsədi qiymət sabitliyini qorumaqdır. Pul sabitliyinin qorunması sabit makroiqtisadi inkişafa şərait yaradaraq iqtisadi artımı təmin edir. Praktiki təcrübələr göstərir ki, inflyasiya səviyyəsinin aşağı olması qiymət artımının proqnozlaşdırılmasını asanlaşdırır ki, bu da öz növbəsində ümumilikdə iqtisadi mühitin proqnozlaşdırılmasına imkan yaradır. Nəticədə sahibkarlar, ev təsərrüfatları və digər iqtisadi subyektlər öz iqtisadi qərarlarını daha etbarlı mənbələr əsasında verə bilirlər. Qiymət sabitliyinin qorunması eyni zamanda iqtisadi resursların daha səmərəli bölgüsü baxımından da əhəmiyyətlidir. Resursların səmərəli bölgüsü isə sosial və rifah halının yaxşılaşdırılmasına gətirib çıxarır. Sahibkarların inflyasiya səviyyəsinin qorunacağına əminliyinin olması uzunmüddətli investisiyalar həyata keçirməkdə onlara arxayınlıq verir ki, bu da resursların daha səmərəli istifadə edilməsinə şərait yaradır. Belə iqtisadi şərait ev təsərrüfatlarının sahib olduqları yığımda olan pul vəsaitlərinin də gələcək üçün səmərəli istifadəsinə və xərclənmə-

lərin artmasına imkan yaradır. Qiymət sabitliyinin təmin edilməsi sərbəst pul vəsaitlərinin böyük hissəsinin maliyyə bazarlarına yönəlməsinə, sonrakı mərhələdə isə ən effektiv istifadəsinə səbəb olur. Sabit qiymət mühiti borcgötürənlər üçün borc vəsaitlərini daha aşağı faizlərlə əldə etməyə imkan yaradır və onları gələcəkdə qiymət artımı nəticəsində dolayı yolla borc yükünün artması riskindən sığortalayır. Bu da sözsüz ki, ölkədə ümumi iqtisadi fəallığın artmasına səbəb olur. Bir çox hallarda vergi yükünün qiymət indekslərinə uyğun olaraq indeksasiya edilməməsi qiymət artımının avtomatik olaraq vergi yükünü artırmasına səbəb olur. Bu baxımdan qiymət sabitliyinin qorunması dövlətin fiskal siyasətinə də müsbət təsir edir. Eyni zamanda onu da qeyd etmək yerinə düşər ki, aşağı inflyasiya səviyyəsi siyasi sabitliyin təmin edilməsi baxımından da də böyük əhəmiyyətə malikdir. Ona görə ki, yüksək inflyasiyanın mövcud olması iqtisadi resursların qeyri-bərabər bölgüsünə, bununla da sosial narazılığın artmasına səbəb olur.

Mərkəzi bankın pul təklifini azaltmaq üçün qiymətli kağızların satışını həyata keçirməsi yalnız o zaman monetar əməliyyat sayılır ki, əldə edilən vəsaitlər dövlət xərcləmələrinə yönəlməmiş olsun. Bunu təmin etmək üçün Mərkəzi banklar adətən xüsusi fond yaradaraq ancaq monetar məqsədlər üçün istifadə edir. Belə fondun mövcud olması Mərkəzi bankların qiymətli kağızların satışı vasitəsilə pul təklifini azaltmaq siyasətinin daha effektiv olmasına imkan yaradır. Belə fond rolunda bir çox inkişaf etmiş dövlətlərdə "diskont pəncərə" çıxış edir. Mərkəzi banklar açıq bazar əməliyyatlarının daha effektiv olması üçün kommersiya banklarının Mərkəzi Bankdan qiymətli kağızlar vasitəsilə pul vəsaitlərini cəlb etməsinə, yəni diskont pəncərəyə limit müəyyənləşdirir. Bu vasitə ilə Mərkəzi banklar dövriyyədə olan pul vəsaitlərinin idarə edilməsinə nail olur. Limit həddinin aşılmaması üçün müxtəlif cərimələr və ya sərt alətlərdən istifadə edilir. Belə sistem Amerika Birləşmiş Ştatları və Avropanın bir çox qabaqcıl dövlətləri tərəfindən də tətbiq edilir. Lakin onu da unutmaq olmaz ki, bu məsələyə Mərkəzi banklar həssas yanaşmalıdır. Çünki tətbiq edilən məhdudiyyətlərin səviyyəsi bazardakı maliyyə durumuna nəzərən yüksək olarsa o zaman gözlənilməyən likvidlik tələbinə bank sistemi gec reaksiya verə bilər və bu da aparılan siyasətin səmərəliliyinin azalmasına gətirib çıxarar. Buna görə də Mərkəzi banklar bu istiqamətdə ciddi nəzarətin aparılmasını və limitin qaldırılmasını mərhələlərlə həyata keçirməlidirlər. Mərkəzi Bankların eyni zamanda Banklar qarşısında minimal vəsaitlər tələbini qoyması açıq bzar əməliyyatlarının səmərəliliyini artırır. Açıq bazar əməliyyatlarının geniş vüsət alması minimal vəsait səviyyəsinin idarə edilməsinə olan marağı azaltmaqdadır. Buna səbəb isə minimal vəsait tələbinin Bankların rəqabətlilik qabiliyyətini bazarda iştirak edən digər maliyyə institutlarına nəzərən azaltmasıdır. Nəticədə bir çox dövlətlərdə minimal vəsait tələbi tədricən azaldılmış və bəzən tamamilə ləğv olunmuşdur. Ancaq onu da qeyd etmək lazımdır ki, minimal vəsait tələbi daha kiçik bazara malik olan dövlətlərdə pul dövriyyəsinin idarə edilməsi baxımından daha səmərəlidir.



**2. Mərkəzi Bankın fəaliyyətinin əsasını təşkil edən nəzəriyyə və konsepsiyaların təhlili.** Tarix boyu istənilən dövrün xüsusiyyətlərinə uyğun olaraq Mərkəzi Bankın fəaliyyətinə aid olan pul siyasəti və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində müxtəlif nəzəriyyələr, modellər və konsepsiyalar işlənib hazırlanmış və tətbiq edilmişdir. Bu nəzəriyyə və konsepsiyalar Mərkəzi bankların fəaliyyətinin əsasını təşkil etmiş və onun tarixi inkşaf prosesində əsas rol oynamışdır. Pul siyasətinin inkşafına təsir etmiş əsas bir neçə nəzəriyyəni göstərmək olar.

Pulun kəmiyyət nəzəriyyəsinin əsasını uzunmüddətli dövr üçün pul , iqtisadi aktivlik və qiymət səviyyəsi arasında əlaqə təşkil edir. Bu nəzəriyyəyə əsasən uzunmüddətli dövr üçün iqtisadiyyatın cəmi buraxılışı kapital (zavod, infrastruktur və s.), əmək və texnologiya kimi qeyri-monetar faktorlardan asılıdır və pul təklifinin artırılması ilə iqtisadiyyatın dəstəklənməsi uzunmüddətli dövr üçün inflyasiyanın artmasına səbəb olur. Bu nəzəriyyənin əsasını 1911-ci ildə İrvinq Fişer tərəfindən təklif edilmiş "mübadilə bərabərliyi" təşkil edir:

$$M \times V = P \times Q$$

Burada M-iqtisadiyyatda mövcud olan pulun miqdarını, V-pul dövriyyəsinin sürətini, P-qiymət səviyyəsini, Q-satılmış məhsulların kəmiyyətini göstərir. Kəmiyyət nəzəriyyəsinə əsasən pul dövriyyəsinin sürəti mübadilə bərabərliyində göstərilməyən xarici faktorlardan asılıdır (məs: hesablaşma texnologiyalarının inkişaf səviyyəsi). Satılmış məhsulların kəmiyyətinə də əmək, kapital və texnologiya kimi xarici faktorar təsir edir. Buna uyğun olaraq pul dövriyyəsinin sürəti və satılmış məhsulların kəmiyyəti (V və Q) bərabərlikdə olan digər dəyişənlər tərəfindən müəyyən olunmur. Nəzəriyyəyə əsasən pul miqdarında artım baş verərsə bu uzunmüddətli dövrdə qiymət artımına səbəb olur. Dünya iqtisadiyyatı tarixində bir çox ölkələrdə hiperinflyasiyanın baş verməsi pulun kəmiyyət nəzəriyyəsinin əhəmiyyətini bir daha təsdiq etmişdir.

Fillips əyrisi modelinə görə isə qisamüddətli dövrdə pul siyasəti vasitəsilə iqtisadiyyata birbaşa təsir edərək iqtisadi fəallığı artırmaq mümkündür. Bu model işsizlik və inflyasiya arasında tərs mütənasib münasibətin olduğunu müşahidə etməyə imkan verir.

Fillips əyrisinə görə, əgər Mərkəzi Bank işsizlik səviyyəsinin azaldılmasına şərait yaratmaq istədikdə inflyasiyanın artmasına imkan verməlidir. Çünki, Mərkəzi Bank daha yumşaq pul siyasəti aparmaqla iqtisadi fəallığı artıraraq tələb səviyyəsini artıra bilər. Yumşaq pul siyasəti şəraitində sahibkarlar və ev təsərrüfatları daha çox borc götürərək xərcləmələri və investisiyaları artıra bilər. İqtisadi fəallığın artırılması nəticəsində isə sahibkarların işçi qüvvəsinə olan tələbi artacaq və yeni işçilərin iqtisadi fəaliyyətə cəlb edilməsi nəticəsində işsizlik səviyyəsi azalacaq. Lakin məhsul və xidmətlərə olan tələbin artması qiymət artımının baş verməsinə səbəb olacaq. Eyni zamanda Fillips əyrisinə əsasən Mərkəzi Bank inflyasiya səviyyəsinin azaldılmasına şərait yaratmaq üçün daha sərt pul siyasəti həyata keçirərək iqtisadi aktivliyi azalda bilər. Bunun nəticəsində isə işsizlik sə-

viyyəsi artacaq.

Fillips modelinin irəli sürdüyü inflyasiya və işsizlik arasındakı bu münasibət mərkəzi banklar üçün iqtisadiyyatın idarə edilməsi baxımından gözəl imkanlar yaradır. Pulun kəmiyyət nəzəriyyəsi daha çox dövriyyədə artıq pul kütləsinin yaranmasının qarşısının alınmasına xidmət edirsə, Fillips əyrisi isə daha çox iqtisadi fəallığa təsir edən bir nəzəriyyə kimi qəbul olunur. Qeyd etmək lazımdır ki, pulun kəmiyyət nəzəriyyəsi uzunmüddətli dövr, Fillips əyrisi modeli isə qısamüddətli dövr üçün özünü doğruldur. 1960-cı illərin ortalarına qədər inflyasiya və işsizlik arasında olan əlaqənin daha yaxından araşdırılması nəticəsində yeni nəsil iqtisadçılar bu əlaqənin zəif olması fikrinə gəlir və nəticədə işsizliyin təbii səviyyəsi konsepsiyası təklif olunur. Sonrakı dövrlərdə iqtisadiyyatda baş verən dəyişiklikləri özündə əks etdirən və Mərkəzi bankların fəaliyyətində mühüm rol oynayan rasional gözləntilər nəzəriyyəsi və zaman ziddiyyəti problemi nəzəriyyəsi irəli sürülür.

Qeyd olunan nəzəriyyə və konsepsiyalar pul siyasətinin xarakteri və formalaşması istiqamətində beş müxtəlif xarakterli mülahizənin pul siyasəti tarixində maliyyə sabitliyinin əsasını aşağı və sabit inflyasiya mühitinin təşkil etməsi fikrinin formalaşmasına səbəb olmuşdur.

**3. Mərkəzi bankçılıq tarixinin tədqiqi.** Dünyada Mərkəzi bankların fəaliyyət prinsipinin oxşar xüsusiyyətləri ilə yanaşı hər bir dövlətin Mərkəzi Bankının özünəxas xüsusiyyətləri, təməl qoyulma və formalaşma tarixi vardır. Bu dövlətlərin mərkəzi banklarında aparılan pul siyasəti tarix ərzində burada maliyyə sisteminin özünəxas xüsusiyyəti ilə toplanmış təcrübələrinə əsaslanır. Qeyd olunan təcrübə dünyanın Mərkəzi Bank tarixində ən çox əhəmiyyəti olan və hərtərəfli təcrübəsi olan dövlətlərin bankçılıq tarixinin araşdırılması tədqiqat üçün çox əhəmiyyətlidir. Bu mənada dünyanın bir çox inkişaf etmiş ölkəsinin Mərkəzi Bank təcrübəsinə nəzər salmaq vacibdir.

Mərkəzi bankçılıq tarixinə nəzər yetirsək aydın olur ki, Amerikada XX əsrlərdə Mərkəzi Bank rolunu oynayan maliyyə institutu mövcud deyildi. Federal Ehtiyat Sistemi 1914-cü ildə yaradıldı. Mərkəzi Bankda mövcud olan bəzi funksiyalar, dövlət qiymətli kağızlarının alış-satışı 1841-ci ildə yaradılmış Müstəqil Xəzinədarlıq adlandırılan institut tərəfindən həyata keçirilmişdir. 1847-ci ildə bu institut birinci açıq alış-veriş əməliyyatlarını dövlət qiymətli kağızlarının növbəti satışı üçün alınmasını həyata keçirmişdir. İlk əməliyyatların əsas amili dövlət maliyyəsinə yönəlilən Nyu-York pul bazarına vəsaitlərin və dövri dəyişikliklər nəticəsində pul tədavülü həcmində yaranan təzyiqlərin ortadan qaldırılması idi. Bu məqsədlə 1853-1855-ci illərdə maliyyə bazarlarına olan təzyiqin azaldılması dövlət xəzinədarlığı dövlət qiymətli kağızlarının geri alınması ilə nail olundu. 1887-ci ildə alınan qərara əsasən dövlət qiymətli kağızların alınmasını deyil bunu dövlət öz vəsaitlərini milli banklarda depozit kimi yerləşdirsin və bu banklara satılan qiymətli kağızları girov kimi istifadə etsin. Bundan sonra isə 1888-ci ildə qərara alındı ki, pul bazarındakı təzyiqlər dövlət qiymətli kağızlarının alışı-satışı ilə tənzimlənsin. XX əsrin əvvəllərinə qədər bu metoddan istifadə olundu. 1914-cü ildə yaradılan Federal Ehtiyat Sistemi özündə Vaşinqtonda olan baş katibliyi və on iki regional rezerv bankını özündə birləşdirirdi. Bu sistem vaistəsi ilə bank vəsaitlərinin əldə etmək üsulları tam şəkildə dəyişdi. Artıq milli banklar ehtiyatları Federal Ehtiyat Sisteminin bu bankların yerləşdiyi ərazidə fəaliyyətdə olan şöbələrindən diskont pəncərə köməyi ilə qiymətli kağızların satışını yerinə yetirməklə əldə edirdilər. İlk zamanlar rezerv bankları mərkəzləşdirilməmiş şəkildə fəaliyyət göstərərək hər biri özünün faiz dərəcə göstəricilərini müəyyən edirdilər. Burada məqsəd rezerv banklarında ikinci tip bazarların inkşafı və aktivlərin gəlirliyini artırılması idi. Onuda qeyd etmək lazımdır ki, rezerv bankları durmadan açıq bazarlarda iştirakçı kimi edərək qiymətli kağızların alış-satışını həyata keçirirdi. 1920-ci ildə əməliyyatların qısamüddətli zaman çalarında faiz dərəcə göstəricilərinə əsaslı şəkildə təsiri müşahidə olundu. Bu səbəbdən Nyu-York Federal Rezerv Bankının direktoru Benjamin Strong bildirdi ki, regionda filialı olan rezerv bankları bir-biri ilə sıx əməkdaşlıq etməlidir. Bununla yanaşı bunu Nyu-York Federal Ehtiyat Bankı idarə etməlidir. Bu təklif olunan fikrin geniş yayılması və dəstək görməsi nəticəsində 1923-cü ildə "Açıq Bazar İnvestisiyaları Komitəsi"i yaradıldı. Bu təşkilat rezerv Bankları arasında əməkdaşlığın yaradılmasının təminatına xidmət edirdi. 1935-ci ildə bir müddətdən sonra "Federal Açıq Bazar Komitəsi" yaradıldı. Bu isə rezerv banklara təftişin gücləndirilmə məqsədini özündə cəmləşdirdi. Bu komitənin icazəsi olmadan rezerv banklar qiymətli kağızların satışını həyata keçirə bilməzdi.



**4. Mərkəzi Bankın fəaliyyətinin hüquqi aspektlərinin təhlili.** Mərkəzi Bankın idarə edilməsində ən böyük əhəmiyyətə malik olan hüquqi sənəd "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanun sayılır. Bu qanun Azərbaycan Respublikası Mərkəzi Bankının hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, habelə idarəetmə və təşkilati strukturunu müəyyən edir, dövlətin Mərkəzi Bankı kimi dövlətin hakimiyyət orqanları ilə və digər şəxslərlə münasibətlərini tənzimləyir. Mərkəzi Bankın məqsədi, funksiya və səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası ilə və bu Qanunla müəyyənləşdirilir. Mərkəzi Bank öz fəaliyyətində, həmçinin Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını və Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələri rəhbər tutur. Mərkəzi Bank publik hüquqi şəxs olmaqla müstəqil balansa, nizamnamə fonduna malikdir və dövlətin müstəsna mülkiyyətindədir. Bu qanunda göstərilir ki, Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir. Mərkəzi Bankın digər məqsədlərinə banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi, habelə bank sisteminin sabitliyinə dəstəyin göstərilməsi aiddir. Eyni zamanda bu qanuna əsasən mənfəət götürmək Mərkəzi Bankın əsas məqsədi deyildir. Mərkəzi Bankın bu qanunla

müəyyənləşdirilmiş funksiyalarına aşağıdakılar aiddir:

- Dövlətin pul və valyuta siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi
- Nağd pul dövriyyəsinin təşkil edilməsi
- Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən və elan edilməsi
- Valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi
- Sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi
- Tədiyyə balansının tərtib edilməsi və ölkənin proqnoz tədiyyə balansının hazırlanması
- İcmal xarici borc statistikasının və beynəlxalq investisiya balansının tərtib edilməsi
- Banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin fəaliyyətinin təşkil edilməsi

Mərkəzi Bank sadəcə olaraq dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə və maliyyə sabitliyinin təmin edilməsinə yardım edir. Mərkəzi Bank dövlətin öhdəliklərinə cavabdeh olmadığı üçün büdcə kəsirinin birbaşa maliyyələşdirilməsi üçün dövlətə kredit vermək hüququna malik deyildir. Lakin qanunda nəzərdə tutulur ki, dövlət büdcəsində vəsait çatışmazlığı yaranarsa bu zaman Mərkəzi Bank gəlir gətirən dövlət borc qiymətli kağızlarının alışı vasitəsilə ilə dövlətə ən çoxu 6 ay müddətinə və cari ildə ödənilmək şərti ilə milli valyutada kredit verə bilər. Maliyyə təhlükəsizliyinin təmin edilməsi baxımından müəyyən olunur ki, dövlətə verilmiş kreditlərin və onların ödənilməmiş hissəsinin ümumi məbləği son üç il ərzində dövlət büdcəsinin orta gəlirlərinin 3 faizindən çox ola bilməz. Qanuna əsasən Mərkəzi Bankın əsas pul siyasəti alətlərinə aşağıdakılar aiddir:

- Açıq bazar əməliyyatlarının aparılması
- Faiz dərəcələrinin müəyyənləşdirilməsi
- Kredit təşkilatları üçün məcburi ehtiyatların müəyyənləşdirilməsi
- Kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi
- Depozit əməliyyatlarının aparılması

Bütün qeyd edilən qanunlar, normativlər, qaydalarla yanaşı "İpoteka haqqında Azərbaycan Respublikasının Qanunu", "Əmanətlərin Sığortalanması haqqında Azərbaycan Respublikasının Qanunu", Azərbaycan Respublikasında milli ödəniş sisteminin inkşafı ilə bağlı qəbul edilmiş dövlət proqramı, banklarda daxili nəzarət və daxili auiditin təşkili barədə qaydalar, Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi qaydaları, Banklarda kreditlərin verilməsi qaydaları və digər bu kimi hüquqi sənədlər mövcuddur. Bütün bu hüquqi sənədlər Mərkəzi Banka pul siyasətinin səmərəli həyata keçirilməsi üçün şərait yaradaraq onun təsir imkanlarını genişləndirir, hüquqi cəhətdən dəstəklənməsini, maliyyə sabitliyinin və ma-


liyyə sisteminin likvidliyini və ümumilikdə iqtisadiyyatın məqsədəuyğun şəkildə effektiv idarə edilməsini təmin edir.

**5. Stabil iqtisadi inkişafın təmin olunmasında Mərkəzi Bankın fəaliyyətinin təhlili.** Azərbaycan Respublikasının Mərkəzi Bankı iqtisadiyyatın idarə edilməsində müxtəlif alətlər vasitəsilə iştirak edir və maliyyə sabitliyinin əsas təminatçısı rolunu oynayır. Mərkəzi Bank pul-kredit siyasətini apararaq məzənnə dəyişməsinə, inflyasiyanın səviyyəsinin qorunmasına, pul kütləsinin idarə edilməsinə, uçot dərəcələrinin dəyişməsinə, kredit qoyuluşlarının idarə edilməsinə, qiymətli kağızlarla əməliyyatlar aparılmasına nəzarət edir. Mərkəzi Bank maliyyə sabitliyini qorumaqla investisiya mühitini yaxşılaşdırır ki, bu da Azərbaycan iqtisadiyyatının cəlbediciliyini artırır. Mərkəzi Bank pul siyasətini apararkən bu siyasətin ötürücülük qabiliyyətinin xüsusiyyətlərini nəzərə alaraq pul kütləsinin və likvidliyin səmərəli idarə edilməsi üçün açıq bazar əməliyyatlarından və məcburi ehtiyat normalarından istifadə edir. Azərbaycan Respublikası Mərkəzi Bankının xarakterinin və onun valyuta, pul və məzənnə siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və Mərkəzi Bankın iqtisadiyyatın idarə edilməsindəki rolunun qiymətləndirilməsi üçün son onillik ərzində Mərkəzi Bankın müxtəlif istiqamətlər üzrə fəaliyyətini nəzərdən keçirək.

Dünya iqtisadiyyatına inteqrasiya olunmuş bir dövlət olaraq Azərbaycanın iqtisadiyyatı son onillikdə qlobal iqtisadi inkişaf tempindən geri qalmamış və bu artım tempi özünü pul siyasətində qabarıq formada göstərmişdir. Dünyada müşahidə edilən iqtisadi artım tempinin təsiri ilə neft qiymətlərinin yüksək səviyyəsi müşahidə edilmişdir. Buna görə də enerji məhsullarının qiymətinin yüksək olması, valyuta gəlirlərinin artması, pul kütləsinin artım mənbələrinin genişlənməsi, qeyri-neft sektorunun artım sürətinin yüksəlməsi kimi amillər Mərkəzi Bankın pul siyasətinin formalaşmasına əhəmiyyətli təsir etmişdir. Bu dövrdə pul siyasəti iqtisadi artım tempi, pul təklifinin dinamikası və inflyasiyanın formalaşmasına təsir edən amillərə nəzarət edilməklə həyata keçirilmişdir. Tədiyyə balansının yüksək profisiti şəraitində qiymət sabitliyinin təmin olunması üçün Mərkəzi Bank inflyasiyaya təsir edən amilləri preventiv vasitələrlə idarə edərək maliyyə sabitliyinin qorunmasına nail olmuşdur. İqtisadiyyatın idarə edilməsi üçün Mərkəzi Bankın istifadə etdiyi pul siyasəti alətləri iqtisadiyyatın yüksək artım dinamikası, monetar transmissiya və inflyasiya gözləntiləri kimi xüsusiyyətlər əsas götürülməklə tətbiq edilmişdir. 2007-ci ildən etibarən yüksək iqtisadi artım tempinin müşahidə edilməsi və pula olan tələbin artması Mərkəzi Bankın pul siyasətinin qarşısında əsas aşağıdakı vəzifələri qoymuşdur:

- İnflyasiyanın təkrəqəmli səviyyədə saxlanılması
- Məzənnə sabitliyinin qorunması
- Əlverişli xarici ticarət mühitinin qorunması
- Pula olan tələbatın ödənilməsi
- Maliyyə sabitliyinin təmin edilməsi

İqtisadiyyatda neft gəlirlərinin sürətlə artması nəticəsində Mərkəzi Bank valyuta bazarına, maliyyə sisteminə bu gəlirlərin neqativ təsirlərinin qarşısının alınması məqsədilə tədbirlər həyata keçirmişdir. Bu tədbirlər sırasına Mərkəzi Bankın neft gəlirlərinin yüksək olduğu dövrlərdə bu gəlirlərin izafi hissəsinin sterilizasiyasını həyata keçirməsi aiddir.

Bu illər ərzində ölkənin iqtisadi göstəricilərinin sürətlə dəyişməsi, tələbin sürətlə artması, sürətli iqtisadi artım nəticəsində istehlak mallarının qiymətinin dəyişməsi inflyasiyaya olan təzyiqlərin artmasına səbəb olmuşdur. Nəticədə bu dövrdə inflyasiyanın formalaşmasına əsasən aşağıdakı amillər təsir etmişdir:

- Tələbin təklifə nisbətən daha yüksək artım tempi
- Fiskal-valyuta ekspansiyası
- Enerjidaşıyıcılarının dünya qiymətlərinin yüksək səviyyəsinin təsiri altında partnyor ölkələrdən inflyasiya idxalı
- Məsrəf inflyasiyası

2007-ci ildən etibarən Azərbaycan iqtisadiyyatı neft gəlirlərinin artması ilə yeni inkişaf mərhələsinə daxil olmuşdur. Yeni inkşaf mərhələsində pula olan tələbin və dünya böhranından öncə ərzaq məhsullarının dünya bazarında qiymətinin artması əvvəlki illə müqayisədə inflyasiyanın iki dəfəyə qədər artmasına səbəb olmuşdur (cədvəl 1).

Cədvəl 1

**Orta illik inflyasiya**

| | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Orta illik inflyasiya %** | 8.3 | 16.7 | 15.4 | 1.5 | 5.6 | 1.1 | 2.4 | 1.4 | 4.0 | 14.7 | 12.9 |

*Mənbə: Cədvəl Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Bu yüksək inflyasiya tendensiyası 2008-ci ildə də dünyada iqtisadi böhranın baş verməsi nəticəsində davam etmişdir və orta illik inflyasiya 15.4% təşkil etmişdir. İqtisadi böhran nəticəsində dünyanın aparıcı valyutalarının məzənnələrində kəskin dəyişikliklərin baş verməsi məzənnə amilinin pul siyasətində rolunun artmasına səbəb olmuşdur. Xarici valyutaların məzənnələrindəki bu dəyişikliklər inflyasiya idxalının yüksəlməsinə və məzənnə riskinin artmasına səbəb olmuşdur.

Azərbaycan Respublikası Mərkəzi Bankının pul siyasətinin əsas istiqamətlərindən biri də məzənnə siyasəti olmuşdur. Yaxın tarixə nəzər saldıqda məlum olur ki, Mərkəzi Bank manatın məzənnəsini xarici valyutalara nəzərən yüksək saxlamağa çalışmış və bununla da rezidentlərin yüksək alıcılıq qabiliyyətini saxlamağa nail olmuşdur. Azərbaycan iqtisadiyyatının yüksək artım tempinə malik olması və səmərəli neft strategiyasının həyata keçirilməsi buna imkan vermişdir. Azərbaycan manatının ABŞ dollarına qarşı məzənnəsi 2011-2014-cü illər ərasında tədricən azalaraq manatın mövqeyini möhkəmləndirsə də, 2015 və 2016-cı illərdə isə neft bazarında kəskin qiymət azalmasının təsiri ilə əks proses baş vermişdir (cədvəl 2).



Cədvəl 2

**Xarici ticarət göstəriciləri və manatın bəzi xarici valyutalara qarşı orta illik məzənnəsi**

| **Mlrd manat** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|---|---|
| İdxal | 9,76 | 9,65 | 10,7 | 9,19 | 9,22 | 8,5 | 8,7 |
| İxrac | 26,57 | 23,9 | 24 | 21,8 | 12,7 | 13,5 | 15,4 |
| Balans | 16,81 | 14,25 | 13,3 | 12,6 | 3,5 | 5,0 | 6,8 |
| Dövriyyə | 36,33 | 33,55 | 34,7 | 31 | 21,9 | 22,0 | 24,1 |
| **Məzənnə** | | | | | | | |
| ABŞ dolları | 0.790 | 0.786 | 0.785 | 0.784 | 1.026 | 1.558 | 1.722 |
| AVRO | 1.100 | 1.010 | 1.042 | 1.043 | 1.138 | 1.734 | 1.932 |

*Mənbə: Cədvəl Azərbaycan Respublikası Statistika Komitəsi və Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Son illər ərzində məzənnə siyasətinin əsas xarakteri tələb və təklif arasında tarazlığın təmin edilməsi məqsədilə müəyyən olunmuş dəhliz daxilində manat və ABŞ dollarının ikitərəfli məzənnəsinin hədəflənməsi olmuşdur. Bu əməliyyat mexanizmi çərçivəsi 2011-ci ildən etibarən tətbiq olunmağa başlanmışdır. Neft gəlirlərinin artması ilə ölkədə tədiyyə balansında yüksək həcmli profisitin olması iqtisadiyyatda pul təklifinin pul tələbini üstələməsinə səbəb olmuşdur. Bu baxımdan artıq pul təklifinin neqativ təsirlərindən qorunmaq üçün məzənnənin hədəflənməsi rejiminin tətbiqinə başlanılması səmərəli addım olmuşdur. Lakin, bu tendensiya 2014-cü ilin sonuna qədər davam etsə də 2014-cü ilin ortalarından dünya neft bazarında qiymətlərin kəskin azalması fonunda tərəfdaş ölkələrin milli valyutalarında əsaslı devalvasiyaların baş verməsinin psixoloji təsiri ilə Azərbaycanın daxili bazarında ABŞ dollarına tələbin artmağa başlaması ilə sona enmiş və Mərkəzi Bank valyuta bazarında dollar satışını artırmağa məcbur olmuşdur. Bu illər ərzində məzənnə sabitliyinin qorunması istiqamətində atılan addımlar makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi baxımından səmərəli olmuş və iqtisadiyyatın rəqabət qabiliyyətini qoruyub saxlamışdır. 2015-ci ildən etibarən isə dünya əmtəə bazarlarında kəskin qiymət dəyişməsi özünü daha qabarıq şəkildə göstərməyə başlamışdır. Neftin qiymətinin kəskin azalması və tərəfdaş ölkələrin iqtisadiyyatında baş verən əsaslı geriləmələr xarici valyuta təklifi kanallarını məhdudlaşdırmış və eyni zamanda bu proseslərlə yanaşı daxili bazarda psixoloji amillərin təsiri ilə dollara olan tələb də artmağa başlamışdır. 2015-ci ildə ötən illə müqayisədə əhaliyə satılan ABŞ dollarının həcmi 47.4% artmışdır. Xarici iqtisadi şokların təsiri ilə manatın məzənnəsinə təzyiqlərin artması, bu təzyiqlərin iqtisadiyyata vura biləcəyi zərərin qarşısının alınması məqsədilə Mərkəzi Bankın idarə heyətinin 21 fevral 2015-ci il tarixli qərarı ilə ABŞ dollarının manata qarşı məzənnəsinin 1.05 AZN səviyyəsində müəyyən edilmiş-

dir. Bununla yanaşı məzənnə siyasətinin əməliyyat çərçivəsində dəyişiklik edilmiş və ikitərəfli məzənnədən ABŞ dolları və Avronun daxil olduğu iki valyutalı dəyəri tənzimlənən səbət mexanizmi tətbiq edilməyə başlanmışdır. Bu mexanizmin tətbiqi maliyyə sistemi üzərində olan təzyiqləri neytrallaşdırmağa imkan verir. Belə ki, bu mexanizm dünya bazarında Avro/Dollar məzənnəsində baş verən dəyişikliklərin qismən Dollar/Manat və Avro/Manat məzənnələri arasında bölüşdürməklə xarici valyuta məzənnələrində baş verən volatilliyin ölkə iqtisadiyyatına mənfi təsirlərini azaldır. Atılmış bu addım məzənnənin yeni neft qiymətlərinə uyğunlaşmasına imkan yaratdı. Lakin 2015-ci ilin avqust ayından etibarən neft qiymətlərinin daha da azalması valyuta bazarına təzyiqləri daha da artırdı və manatın ucuzlaşması gözləntilərinin artması və tərəfdaş ölkələrdə baş verən kəskin devalyasiyalar fonunda Mərkəzi Bank təzyiqləri azaltmaq üçün yeni addımlar atmaq məcburiyyətində qaldı. Nəticədə Mərkəzi Bankın idarə heyətinin 21 dekabr 2015-ci il tarixli qərarı ilə məzənnənin hədəflənməsi rejimindən "üzən məzənnə" rejiminə keçid reallaşdırıldı və bunun nəticəsində dolların manata qarşı məzənnəsi 1.5 AZN səviyyəsinə qalxdı. Bununla dəyəri tənzimlənən səbət mexanizminin tətbiqi də dayandırılmışdır. Yeni rejim Mərkəzi Banka məzənnəni hədəfləməyə deyil, yalnız maliyyə alətləri vasitəsilə məzənnədəki kəskin dəyişikliklərin qarşısını almağa imkan verdi. Aşağı neft qiymətlərinin 2016-cı ildə də davam etməsi iqtisadiyyata təzyiqləri artırmış və pul siyasəti öncəki ildə müəyyənləşdirilmiş istiqamətlər üzrə tətbiq edilmişdir. Bu dövrdə idxalın azalması valyuta ilə əməliyyatlara ciddi təsir göstərmişdir. 2016-ci ilin I yarımilində ötən ilin eyni dövrü ilə müqayisədə ABŞ dolları ilə valyuta əməliyyatlarının həcmi 2.9 dəfə, avro ilə əməliyyatların həcmi isə 2.8 dəfə azalmışdır. Eyni zamanda bu dövrdə Banklar tərəfindən satılan xalis nağd ABŞ dolları ötən ilin eyni dövrü ilə müqayisədə 73 dəfə azalaraq 78 milyon ABŞ dolları, avro ilə əməliyyatlar isə 4.4 dəfə azalaraq 100 milyon avro təşkil etmişdir. Yeni məzənnə rejimi şəraitində Mərkəzi Bankın valyuta bazarına müdaxiləsi minimuma endirilmiş və hərraclar vasitəsilə dolayı təsir imkanları ilə məhdudlaşdırılmışdır.

Mərkəzi Bankın maliyyə sektorunda likvidliyin təmin edilməsi və risklərin daha səmərəli idarə edilməsi məqsədilə istifadə etdiyi pul siyasəti alətlərindən biri də məcburi ehtiyat normalarıdır. Mərkəzi Bank məcburi ehtiyat normalarını müəyyən edərkən pul kütləsinin artım templərini, inflyasiya səviyyəsini və iqtisadi subyektlərin fəaliyyətinin aktivliyini nəzərə alır. Yaxın illərin məcburi ehtiyat normalarına nəzər saldıqda məlum olur ki, 2011-ci ildən etibarən ehtiyat normalarının tədricən artması müşahidə olunsa da son illərdə baş vermiş iqtisadi proseslərin təsiri ilə yenidən aşağı düşməyə başlamışdır. 2011-ci ildən sonra məcburi ehtiyat normaları tədricən 0.5%-dən 3%-ə qədər qaldırılmış və 2014-cü ilin ortalarına qədər bu səviyyədə qalmışdır (cədvəl 3).



Cədvəl 3

**Mərkəzi Bankın məcburi ehtiyat normaları, faizlə**

| Müddət | Hüquqi şəxs | | Fiziki şəxs | |
|---|---|---|---|---|
| | Yerli valyutada | Xarici valyutada | Yerli valyutada | Xarici valyutada |
| 01.01.2011-01.05.2011 | 0.5 | 0.5 | 0.5 | 0.5 |
| 01.05.2011-01.07.2011 | 2 | 2 | 2 | 2 |
| 01.07.2011 - 31.01.2012 | 2 | 3 | 2 | 3 |
| 01.02.2012 - 31.07.2014 | 3 | 3 | 3 | 3 |
| 01.08.2014 - 01.03.2015 | 2 | 2 | 2 | 2 |
| 01.03.2015 - 02.03.2016 | 0.5 | 0.5 | 0.5 | 0.5 |
| 03.03.2016 - hal-hazıradək | 0.5 | 1 | 0.5 | 1 |

*Mənbə: Cədvəl Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Bu artımın səbəbi ölkəyə valyuta axınlarının kəskin artdığı dövrdə pul artıqlığının və inflyasiyanın artım templərinin qarşısının alınnması məqsədi daşımışdır. Daha sonra neft gəlirlərinin azalması ilə pul təklifinin azalması və iqtisadi aktivliyin səngiməsinin qarşısının alınması üçün Mərkəzi Bank məcburi ehtiyat normalarını aşağı salmağa başlamışdır. Məcburi ehtiyat normaları 2015-ci ildə 2%-ə, 2016-cı ildə isə 0.5%-ə qədər aşağı salınmışdır.

**6. Mərkəzi Bankın iqtisadiyyatın stabil inkişafında fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi.** 2007-ci ildən etibarən ölkə iqtisadiyyatına daxil olan neft gəlirlərinin artması, pula olan tələbin yüksəlməsi və dünya ərzaq bazarında baş verən qiymət dəyişiklikləri inflyasiyaya təzyiqi artırsa da illik orta inflyasiya təkrəqəmli səviyyədə saxlanılmışdır. Bu dövr ərzində Azərbaycanda istehlakçı qiymətlərinin indeksinin (İQİ) Avropa İttifaqı dövlətlərinin istehlakçı qiymətləri indeksi ilə müqayisəsi göstərir ki, Azərbaycanda İQİ aşağı səviyyədə olmuşdur. 2011-ci ildə Azərbaycanda bu göstərici Avropa İttifaqı ilə müqayisədə 2.5 dəfə çox olsa da, növbəti illərdə kəskin surətdə azalmış və Avropa İttifaqı ilə müqayisədə 2012-ci ildə 2.5 dəfə az olmuş, 2013-cü və 2014-cü illərdə isə eyni səviyyədə olmuşdur (şəkil 1).

2015-ci ildən etibarən isə manatın devalvasiyasının baş verməsi ilə idxalın bahalaşması İQİ artmasına imkan yaratsa da Mərkəzi Bank tərəfindən həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində İQİ 4% səviyyəsində olmuşdur. Xarici təzyiqlərin daha da artması və bu təzyiqlərin iqtisadiyyata təsirinin minimallaşdırılması məqsədilə dekabrda manatın yenidən devalvasiyası həyata keçirilmişdir. Bu da 2016-cı ildə də ötən ildəki trendin daha da güclənməsinə səbəb olmuşdur, 2017-ci ildə isə trend

bir qədər zəifləmişdir.




**Şək.1. İstehlakçı qiymətləri indeksi**

*Mənbə: Şəkil Azərbaycan Respublikası Statistika Komitəsi və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Göründüyü kimi, son illərdə qiymətlərdə baş verən dəyişikliklərdə aparılan səmərəli pul siyasəti nəticəsində daxili monetar təsirlərin payı az olmuşdur. Əksinə qiymət artımının baş verməsində dünya bazarlarında əmtəə qiymətlərinin dəyişməsi əsas rola malik olmuşdur. Buna baxmayaraq, 2016-cı və 2017-ci ili çıxmaq şərtilə qalan illərdə qiymət artımı məqbul səviyyədə saxlanılmışdır.

Aparılan tədqiqatlar göstərir ki, Mərkəzi Bankın apardığı məzənnə siyasətinin istiqamətləri özünü eyni zamanda real effektiv məzənnələrdə baş verən dəyişikliklərdə açıq şəkildə göstərir. Bu illər ərzində manatın nominal məzənnələrində baş verən dəyişikliklər real effektiv məzənnənin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Real effektiv məzənnənin idarə edilməsində Mərkəzi Bankın əsas məqsədi qeyri-neft sektorunun inkişafına mane olmamaq və onun ixrac potensialını qorumaq olmuşdur.




**Şək.2. Real Effektiv Məzənnə və onun strukturu**



*Mənbə: Şəkil Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Bu istiqamətdə atılan addımlar özünü doğrultmuş və 2011, 2012 və 2013-cü illərdə real effektiv məzənnənin bahalaşması təkrəqəmli səviyyəni ötməmişdir. 2012-ci ildə, hətta qeyri-neft sektoru üzrə real effektiv məzənnə 5.4% ucuzlaşmışdır. Lakin 2014-cü ildən etibarən yeni iqtisadi mühitin formlaşması və pulsiyasətinin istiqamətinin dəyişməsi real effektiv məzənnənin 17% bahalaşmasına səbəb olmuşdur (şəkil 2).

Bu halın ölkənin əsas iqtisadi drayverinə çevrilmiş qeyri-neft sektorunun inkişafına vura biləcəyi zərərin qarşısının alınması 2015-ci ildə həyata keçirilmiş devalvasiyaların əsas məqsədlərindən biri olmuşdur. Manatın ucuzlaşması şəraitində qeyr-neft sektorunun rəqabət qabiliyyətinin artırılmasına şərait yaradılmışdır. Bununla yanaşı Mərkəzi Bank tərəfindən aparılan səmərəli inflyasiya siyasəti nəticəsində Azərbaycan və tərəfdaş ölkələr arasında mövcud olan inflyasiya fərqinin mənfi təsirlərinin qarşısı alınaraq iqtisadiyyata neqativ təsiri minimallaşdırılmışdır. Nəticədə inflyasiya fərqinin real effektiv məzənnəyə təsiri 2015-ci ildə, hətta -0.2% səviyyəsində olmuşdur (şəkil 2).

**7. Stabil inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun yüksəldilməsi üzrə prioritet istiqamətlərin tədqiqi.** Ölkəyə daxil olan gəlirlərin müxtəlif iqtisadi subyektlər arasında səmərəli bölgüsünə və sürətli hesablaşmalar hesabına yığımda olan vəsaitlərin iqtisadi aktivliyin artırılmasına yönəldilməsinə imkan yaradılmışdır. Mərkəzi Bank neft gəlirlərinin neqativ təsirlərinin qarşısını uğurla ala bilmiş və qiymət artımı üzərində nəzarəti səmərəli şəkildə həyata keçirərək onun məqbul səviyyədə saxlanılmasına və bununla da ölkə iqtisadiyyatına olan inamın artmasına, investisiya mühitinin yaxşılaşdırılmasına, ölkə iqtisadiyyatının cəlbediciliyinin artırılmasına nail olmuşdur. Mərkəzi Bank eyni zamanda özünün məzənnə siyasəti hesabına neft gəlirlərinin valyuta bazarında yaratdığı təzyiqin də neqativ təsirlərindən iqtisadiyyatı qoruya bilmişdir. Məzənnənin sabitliyinin təmin edilməsi ölkə iqtisadiyyatının etibarlılığını artırmış və xarici bazarlarda əhalinin alıcılıq qabiliyyətini yüksək səviyyədə saxlamaqla sahibkarlığın inkişafına şərait yaratmışdır. Lakin, son iki ildə dünya iqtisadiyyatında müşahidə edilən böhranın təsirləri Azərbaycan iqtisadiyyatından da yan keçməmiş və ölkəyə daxil olan gəlirlərin kəskin azalmasına və ticarət əlaqələrinin zəifləməsinə səbəb olmuşdur. Mərkəzi Bank məzənnə və faiz siyasəti hesabına xarici neqativ təsirləri yumşalda bilsə də iqtisadiyyatın xarici təsirlərə həssaslığı yüksəlmiş və bu səbəbdən də ölkə iqtisadiyyatına xeyli sayda mənfi təsir göstərən parametrlər yaranmışdır. Çıxış yollarının tapılması üçün hal-hazırkı dövrdə iqtisadi mühitin davamlı şəkildə təhlil edilməsi vacibdir. Bu baxımdan apardığımız təhlil və qiymətləndirmə əsasında mövcud iqtisadi çağırışların və gedən iqtisadi proseslərin xarakterinə uyğun olaraq davamlı iqtisadi inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun daha da yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsinin tədqiqat üçün əhəmiyyəti böyükdür.

Qeyd etdiyimiz kimi son on, on beş il ərzində neft gəlirləri hesabına ölkə iqtisadiyyatı yüksək sürətlə inkişaf etmiş və valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artmışdır. Bu da inflyasiya siyasətinin əhəmiyyətini daha da artırmış və Mərkəzi Bank onun uğurla həyata keçirilməsinin öhdəsindən gələ bilmişdir. Lakin, yüksək iqtisadi artımın ardından dünya bazarında neft qiymətlərinin kəskin azalması Azərbaycan iqtisadiyyatı üçün yad olan tamam yeni mühitin yaranmasına səbəb olmuşdur. Belə bir şəraitdə uzun illər neft gəlirləri hesabına formalaşmış qeyri-neft sektorunun potensialı və toplanmış xarici valyuta vəsaitləri hesabına qiymət artımının kəskin artmasının qarşısı alınsa da inflyasiya ikirəqəmli səviyyəyə qalxmışdır. Neft qiymətlərinin aşağı səviyyəsinin davam etməsi və Mərkəzi Bankın valyuta vəsaitlərinin 3 dəfədən çox azalması gələcəkdə qiymət artımının qarşısının alınması üçün daha səmərəli tədbirlərin həyata keçirilməsini zəruri edir. İnflyasiya artımının qarşısının alınması məqsədilə son iki ildə Mərkəzi Bank tərəfindən atılan əsas addım uçot dərəcələrinin artırılması olmuşdur. Belə ki, uçot dərəcələri 2 dəfədən çox artaraq 15% səviyyəsinə çatmışdır.

Mövcud iqtisadi konyunkturaya uyğun olaraq qiymət artımının qarşısının alınması üçün əsas aşağıdakı istiqamətləri göstərmək olar:

- Gömrük rüsumlarının azaldılması.
- Sahibkarlıq fəaliyyəti üzərində vergi rüsumlarının azaldılması.
- İstehsal xərclərinin azaldılması.
- Bank sisteminə olan etibarın bərpa edilməsi.
- İnflyasiyanın hədəflənməsi rejiminə keçid.
- Qeyri-neft sektorunun inkişafı.
- Bank sisteminin cəlbediciliyinin artırılması.
- İnvestisiya mühitinin yaxşılaşdırılması.
- İnflyasiyanın azaldılması.
- Məzənnə sabitliyinin təmin edilməsi.
- Xüsusi ehtiyat normalarının tətbiqi.
- Daha çevik ehtiyat normaları siyasətinin aparılması.
- Şirkətlər üçün maliyyə bazarının inkişaf etdirilməsi.
- Təkrar bazarın inkişaf etdirilməsi.

Göstərdiyimiz istiqamətləri ümumiləşdirərək o nəticəyə gələ bilərik ki, hal-hazırkı iqtisadi şəraitdə əsas məqsəd sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması və bu sahibkarlar üçün sağlam rəqabət mühitinin yaradılması olmalıdır. Çünki sahibkarlıq mühitinin yaxşılaşdırılması yerli istehsalın artmasına şərait yaradacaq ki, bu da idxaldan asılılığı azaldaraq ölkə iqtisadiyyatını aşağı neft qiymətləri və inflyasiya idxalı kimi neqativ xarici təsirlərdən qoruyacaqdır. Daxili istehsalın inkişaf etdirilməsi dövriyyədə olan pul vəsaitlərinin daha səmərəli istifadəsi ilə iqtisadiyyatın dəyər yaratmaq qabiliyyətini artıraraq inflyasiya səviyyəsinin də azalmasına səbəb olacaqdır. Beləliklə, Mərkəzi Bankın iqtisadiyyatın idarə edilməsində təsir gücünü artırmaq və ona dövlətin iqtisadi siyasətinin daha səmərəli formada reallaşdırılmasına imkan yaratmaq üçün sahibkarlıq fəaliyyəti genişləndirilməli və daxili istehsal gücləndirilməlidir.



**8. İqtisadiyyatın stabil inkişafında mərkəzi bankların dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanlarının araşdırılması.** 2007-ci ildə dünya iqtisadi böhranı başlamazdan əvvəl dünya iqtisadçıları arasında belə bir fikir birliyi mövcud idi ki, iqtisadi aktivliyin yüksək səviyyədə saxlanılması üçün açıq bazar əməliyyatlarına uyğun şəkildə ehtiyatlı və çevik faiz siyasətinin aparılması vacibdir. Lakin bu ideya maliyyə qeyri-sabitliyi dövründə özünü doğrultmadı və iqtisadi böhrana qarşı mübarizə aparmaq üçün Ehtiyat Sistemini qeyri-ənənəvi tədbirlər həyata keçirmək məcburiyyətində qoydu. İpoteka bazarında baş verən böhranın "yayılma effekti" ilə bütün maliyyə sistemini bürüməsi və xarici bazarlara təsir etməsinə cavab olaraq böhranın aradan qaldırılması istiqamətində görülən tədbirlər sırasında ən çox diqqəti çəkən məqamlardan biri Ehtiyat Sisteminin faiz dərəcələrini kəskin aşağı salması idi. 2007-ci ilin sentyabr ayından faiz dərəcələri 5.25%-dən 0% və 0.25% aralığında dəyişə bilən səviyyəyə salındı. Bu Federal Ehtiyat Sistemi tarixində ilk dəfə idi və faiz dərəcələri heç vaxt bu qədər aşağı səviyyədə müəyyənləşdirilməmişdir. Faiz dərəcələrinin aşağı salınmasının digər yadda qalan cəhəti isə onun çox uzun bir müddətdə, yəni yeddi il müddətində qüvvədə qalması idi. Federal Rezervin belə yumşaq faiz siyasətini aparmasına səbəb böhran nəticəsində iqtisadi subyektlərin kapitallaşma səviyyəsinin azalması, maliyyə sisteminin likvidlik risklərinin və bir çox böyük şirkətlərin maliyyə dəstəyinə ehtiyacının kəskin artması idi. İstər bank sisteminə, istər sahibkarlara daha ucuz pul təklif etməklə Ehtiyat Sistemi özünün maliyyə vəsaitlərini daha əlçatan edir və iqtisadi aktivliyin qorunmasına çalışırdı. Mərkəzi Bank tərəfindən belə dəstəyin verilməsi və uzun bir dövrdə davam etdirilməsi özünün müsbət təsirini göstərmiş və iqtisadi inkişafı təmin etməyə və işsizlik səviyyəsinin kəskin aşağı düşməsinə şərait yaratmışdır.

Neft gəlirlərinin öncəki illərlə müqayisədə azalması və devalvasiya nəticəsində iqtisadi artım tempinin enməsi Federal Ehtiyat Sistemi tərəfindən həyata keçirilən qeyd etdiyimiz yumşaq faiz siyasətinin Azərbaycanda tətbiq edilməsi məsələsini aktuallaşdırdı. 2015-ci ildən etibarən neft gəlirlərinin azalması ilə Azərbaycan iqtisadiyyatında müşahidə edilən qeyri-sabitlliyin səbəb olduğu inflyasiya artımının qarşısının alınması məqsədilə Mərkəzi Bank uçot dərəcələrini kəskin şəkildə qaldırmışdır.

Azad bazar iqtisadiyyatının ən gözəl nümunələrindən olan Amerika iqtisadiyyatında belə böhran dövründə iqtisadiyyata birbaşa müdaxilə təcrübəsi tətbiq edilir və bu, müsbət nəticələrin əldə edilməsinə gətirib çıxarır. Belə bir səmərəli təcrübənin Azərbaycan iqtisadiyyatının hal-hazırkı vəziyyətində istifadə edilməsi böhranın təsirlərinin azaldılmasında səmərəli olar. Qeyd etmək lazımdır ki, neft qiymətlərinin azalması ilə Azərbaycanda başlanan böhran nəticəsində on dənə Bankın lisen-

ziyası ləğv olunmuşdur. Bankların bağlanması ümumi Bank sistemində olan risklərin konsentrasiyasının artmasına səbəb olur və gələcəkdə risklərin idarə edilməsini daha da çətinləşdirir. Buna görə də bankların bağlanmasının qarşısının alınması məqsədilə qeyd etdiyimiz təcrübə əsasında xüsusi kredit təşkilatları vasitəsilə onların əlavə maliyyələşməsini təmin etmək mümkündür. Bu halda həmin bankların likvidliyinin yüksəldilməsi iqtisadiyyatın vaxtlı-vaxtında pul vəsaitləri ilə təminatını yaxşılaşdıracaq, sahibkarlıq müəssisələrinin fəaliyyətini canlandıracaq, işsizliyin artmasının qarşısını alacaq və maliyyə sisteminin risklərinin idarə edilməsini asanlaşdıracaqdır. Bank sisteminə belə dəstəyin verilməsi, eyni zamanda onların zəifləmiş iqtisadiyyatı kapitallaşdırma potensialının bərpa edilməsi, yüksək uçot dərəcələrinin mövcudluğu şəraitində onların kredit cəlb etmək qabiliyyətinin daha da zəifləməsinin qarşısının alınması və bank sistemində vasitəçilik əməliyyatlarının davamlılığının qorunması baxımından da əhəmiyyətlidir. Azərbaycanın bank sistemində hal-hazırda gəlirlilik səviyyəsini azaldan əsas səbəb milli valyutanın devalvasiyası nəticəsində müştərilərin borc yükünün artması ilə onların ödəmə qabiliyyətinin zəifləməsidir. Ona görə də təklif edilən yeni yaradılacaq kredit təşkilatları vasitəsilə həm maliyyə vəsaitlərinin geniş və səmərəli istifadə edilməsi, həm də güzəştlər tətbiq edilərək əhalinin borc yükünün yüngülləşdirilməsi istiqamətində istifadə edilməsi də maliyyə təhlükəsizliyinin qorunması üçün səmərəli olar. Amerika təcrübəsində olduğu kimi bu yeni təşkilatlar vasitəsilə eyni zamanda iqtisadiyyatda böyük paya malik olan digər bank olmayan maliyyə insitutlarına və daxili istehsalda böyük paya sahib olan şirkətlərə də maliyyə dəstəyinin verilməsi səmərəli olar. Onu nəzərə alsaq ki, ölkədə hal-hazırda idxalın bahalaşması ilə əlaqədar olaraq istehlak məhsullarının, xüsusilə də ərzaq məhsullarının qiyməti kəskin qalxmışdır, bu zaman yerli istehsalla məşğul olan təşkilatlara istehsal potensialını artırmaq üçün maliyyə dəstəyinin verilməsi həm iqtisadi, həm də sosial baxımdan çox vacib məsələdir. Buna görə də belə təşkilatların yaradılması ilə sahibkarlığa dəstəyin verilməsi istər iqtisadi aktivliyin artırılması, istərsə də daxili istehlak tələbatının ödənilməsi baxımından vacibdir. Bu tədbirlərin həyata keçirilməsinin inflyasiya riskinə gəldikdə isə hal-hazırda Azərbaycanda mövcud olan vəziyyət ilə o dövrdə Amerikada mövcud olmuş vəziyyət arasında oxşarlıq vardır. Yəni, Amerikada olduğu kimi Azərbaycanda da inflyasiya daha çox qeyri-monetar səbəblərin təsiri ilə inflyasiya idxalı və manatın məzənnəsinin ucuzlaşması nəticəsində baş vermişdir. Amerika təcrübəsində məlum olur ki, inflyasiya qeyri-monetar səbəblərdən yaranarsa bu zaman tədavüldə olan pul vəsaitlərinin həcminin artırılması təhlükəli deyildir. Çünki bu zaman bu vəsaitlər investisiya formasında istehsala yönələrək iqtisadiyyatın dəyər yaratma qabiliyyətini artıraraq izafi pul kütləsinin yaranmasının qarşısını alır. Daha geniş mənada desək, dövriyyədə olan pul vəsaitləri ilə yaradılmış məhsul arasında balans yaranır və bu inflyasiyaya deyil, iqtisadi aktivliyin təmin edilməsinə gətirib çıxarır. Ona görə də böhran dövründə kredit təşkilatları vasitəsilə iqtisadiyyatda kapitallaşmanın artırılması vacibdir.


**9. Stabil iqtisadi inkişafın təmin edilməsində "Strateji Yol Xəritəsi" və onun maliyyə xidmətləri üzrə prioritetlərinin təhlili.** Ölkə iqtisadiyyatında stabil vəziyyətin təmin edilməsi hökumətin ən vacib funksiyalarından biridir. Böhranların baş verdiyi dövrlərdə isə bu məsələnin zəruriliyi daha da güclənir. Çünki böhran vəziyyətində səviyyəsi aşağı düşmüş olan makroiqtisadi göstəricilərin yüksəldilməsi, iqtisadi və maliyyə böhranlarının yaratmış olduğu kataklizmlərin nəticələrinin aradan qaldırılması təxirəsalınmaz bir vəzifə olaraq qarşıda durur. Baş vermə səbəbindən asılı olmayaraq həm monetar, həm də qeyri monetar amillərin təsiri nəticəsində yaranmış olan böhranların nəticələrinin aradan qaldırılmasında xüsusi rol oynayan dövlət qurumlarından biri Mərkəzi Bankdır.

Hökumət baş vermiş son böhranların nəticəsini zərərsizləşdirmək məqsədilə çoxsaylı tədbirlərə əl atmışdır. Bunlardan biri də antiböhran tədbirlərin həyata keçirilməsi üçün zəruri fəaliyyət proqramının hazırlanması və qəbul edilməsi olmuşdur. Bu məqsədə yönəlmiş fəaliyyət nəticəsində Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji yol xəritəsi" təsdiq edilmişdir. Bu sənədin tələblərinin reallaşdırılması qarşısında duran ən mühüm məqsəd milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə strateji hədəflərə nail olunmasından, davamlı iqtisadi inkişafın təmin edilməsindən, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsindən, inklüzivliyin reallaşdırılmasından, sosial rifahın dayanmadan artırılmasından və s. ibarətdir. Bu məqsədlərə nail olunması üçün qlobal çağırışlara cavab verən səmərəli investisiyaların cəlb olunması, azad rəqabət mühitinin yaradılması, beynəlxalq bazarlara uğurlu çıxışın təmin edilməsi, insan kapitalının daimi inkişaf etdirilməsi və s. əsas, aparıcı istiqamətlər kimi secilmişdir.

Ölkə iqtisadiyyatını qarşılaşmış olduğu böhran vəziyyətindən çıxarmaq üçün əsas fəaliyyət sənədi kimi qəbul olunan "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" özündə iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsinin əks etdirir.Bu sənəd qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə yaxın dövr üçün, yəni 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planını, 2025-ci ilədək olan orta dövr və 2025-ci ildən sonrakı dövr üçün uzunmüddətli hədəf baxışından ibarətdir. Bu strateji sənəd təkcə inkişaf məqsədləri və prinsiplərinin deyil, həm də hər bir istiqamət üzrə qlobal meylləri, eyni zamanda icrası zəruri olan bütün məsələləri özündə əks etdirir.

Qeyd etmək lazımdır ki, bu sənədin əsas tərkib elementlərindən biri də "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsidir". Bu sənəddə göstərildiyi kimi 2003-cü ildən başlayaraq 2015-ci ilə qədər Azərbaycan Respublikası iqtisadi artım tempinə görə dünyada ön sıralarda olmuşdur. Uğurla reallaşdırılan iqtisadi siyasət nəticəsində əldə olunmuş gəlirlər hesabına infrastruktur modernləşdirilmiş, qeyri-neft sektoru inkişaf etdirilmiş, sosial rifah yaxşılaşdırılmış, dövlətin sərəncamında olan aktivlər artırılmış, ÜDM-in artım templəri sürətlənmiş və əhəmiyyətli strateji valyuta ehtiyatları yaradılmışdır.

Dünya neft bazarında 2014-cü ildən başlayan kəskin qiymət azalmaları, həmcinin ticarət tərəfdaşı ölkələrində baş verən böhran nəticəsində iqtisadi artımın azalması, bu səbəblərdən maliyyə sektorunda baş verən geriləmələr Respublika iqtisadiyyatında yeni iqtisadi inkişaf yanaşmasına zərurət yaratmışdır. Məhz elə bu strateji sənədin ortaya çıxması və onun tərkib hissəsi olan "Maliyyə Xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin yaranması da bu zərurətdən doğmuşdur.

Ölkə iqtisadiyyatında stabil inkişafın təmin edilməsi ücün "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"-də müəyyən edilmiş hədəf və prioritetlər cox böyük əhəmiyyətə malikdir. Həmin hədəf və prioritetlərin hər biri özündə bank sistemində icrası zəruri olan məsələləri əks etdirir. Birinci strateji hədəf "Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması"adlanır. Bu hədəfin reallaşdırılması üçün bank sisteminin kapitallaşması və likvidliyinin təmin edilməsi, qeyri-işlək aktivlərin restrukturizasiya planının hazırlanması, sığorta bazarının inkişafı, maliyyə inklüzivliyinin gücləndirilməsi kimi prioritetlər müəyyən edilmişdir.

Tərəfimizdən aparılan təhlillər göstərir ki, ölkə iqtisadiyyatında baş vermiş böhran vəziyyətindən çıxmaq üçün, stabil iqtisadi inkişafın təmin edilməsi və onun davamlı olması üçün ilk növbədə bank sisteminin kapitallaşma səviyyəsinin yüksəldilməsi və bankların zəruri likvidlik səviyyəsinin təmin edilməsi cox vacibdir. Bunun ardınca bank sistemində qeyri-işlək aktivlərin məhsuldar aktivlərə çevrilməsi sistemin dayanıqlığını artırmaqla bu sistemin əhəmiyyətini artırır və ölkə iqtisadiyyatının stabil inkişafını təmin edən mühüm amillərdən birinə çevirər. Bu istiqamətdə aparılan tədbirlər icərisində sığorta bazarının inkişaf etdirilərək müasir tələblər səviyyəsinə yüksəldilməsi də hazırkı dövrün mühüm şərtlərindən biridir. Sığorta sisteminin normal inkişaf səviyyəsinə nail olunması iqtisadiyyatın və ictimai həyatın bütün sahələrində baş verə biləcək zərərlərin aradan qaldırılması üçün mənbə rolunu oynayaraq, ölkədə stabil inkişafı təmin edən amillərdən birinə çevrilə bilər.

Təhlili aparılan sənəd vasitəsilə müəyyən edilən ikinci strateji hədəf "Maliyyə bazarlarının inkişafı" adlanır. Burada ölkə iqtisadiyyatı ücün cox vacib olan elementlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması, investorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması və banklararası pul bazarında aktivliyin artırılması prioritetləri müəyyən edilmişdir.

Aparılan təhlillər göstərir ki, respublikamızda fiziki və hüquqi şəxslərin maliyyə bazarlarına çıxışı həm Qərbi Avropa, həm də Şərqi Avropa ölkələri ilə, həmçinin Rusiya, Türkiyə və Qazaxıstanla müqayisədə çox aşağıdır. 2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı məqsədi ilə Dövlət Proqramı çərçivəsində bir çox tədbirlər həyata keçirilsə də, bu bazarın inkişafı üçün daha çox məsələlər həll olunmalı, daha çox tədbirlər reallaşdırılmalıdır. Bu bazar, ölkəmizdə investorların kapital bazarı və maliyyə alətləri haqqında məlumatlarının az olması, korporativ rəhbərliyin qiymətli kağızları



qeydiyyata almaq üçün şəffaf hesabatlılığa həvəs göstərməməsi və s. səbəblərdən normal inkişaf etməmişdir.

Qeyd edilən istiqamətdə səmərəli nəticələr əldə etmək üçün emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühit yaradılmalıdır. Bunun üçün ən zəruri addımlardan biri Azərbaycanda şirkətlərin listinqə marağının artırılması yolu ilə maliyyə bazarlarının inkişafının sürətləndirilməsidir. Bu istiqamətdə ən mühüm vəzifələrdən biri də emitent və vasitəçilər üçün əlverişli mühitin yaradılması ilə yanaşı müxtəlif investorların bazara çıxış imkanlarının artırılmasıdır. Bunun üçün özəl sektorun nümayəndələri ilə qarşılıqlı fəaliyyət üçün stimullaşdırıcı tədbirlərin təşkil edilməsi,bu sahədə zəruri infrastrukturun yaradılması, təkmilləşdirilməsi, likvidliyin artırılması və s. həyata keçirilməlidir.

Son illər ərzində respublikamızda fəaliyyət göstərən banklarda risklərin idarə edilməsi məqsədilə reallaşdırılan tənzimləyici tələblərin getdikcə sərtləşdirilməsi bu sektorda risk idarəetməsi ənənələrinin formalaşmasına gətirib çıxarmışdır. İqtisadiyyatda böhranla əlaqədar olaraq yaranan kataklizmlər bankların risklərə həssaslığını artırmış,yeni risk zonaları yaranmış və bu səbəbdən də risklərin daha təkmil idarə edilməsi zərurəti yaranmışdır. Ölkə iqtisadiyyatında stabil inkişafı təmin etmək məqsədilə bankların qarşılaşdığı risklərin idarə edilməsini təkmilləşdirmək üçün mövcud prudensial tələblərin mərhələli şəkildə Bazel Komitəsinin tənzimləmə prinsiplərinə uyğun təşkil olunması günün zəruri tələbinə cevrilmişdir.

Ölkəmizdə hal hazırda yaranmış olan iqtisadi vəziyyət maliyyə xidmətləri sektorunda konsolidasiya edilmiş riskəsaslı nəzarət modelinin tətbiqini zəruri edir. Mövcud nəzarət sisteminin təkmilləşdirilməsi, yeni riskəsaslı nəzarət modelinin yaradılması və tətbiqi törəmə təşkilatları olan maliyyə institutlarında fərdi prudensial hesabatlığın və həmçinin konsolidasiya edilmiş dövri prudensial hesabatlığın təşkil edilməsi tələbini ortaya qoya biləcək ki, bu da səmərəli bank nəzarətinin həyata keçirilməsinə səbəb olacaq.

Ölkədə stabil iqtisadi vəziyyətin təmin olunması üçün vacib şərtlərdən biri də bank sisteminin davamlı inkişafının təmin edilməsi və iqtisadi subyektlərə və bütün müştəri kontingentinə yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsi məqsədilə bu sektorda rəqəmsallaşdırma və səmərəliliyin daha da yüksəldilməsini təmin etmək vəzifəsidir.

**Tədqiqatdan əldə olunan nəticələrin qısa məzmunu:**

1. Ölkə iqtisadiyyatının dayanıqlı və davamlı olması onu təşkil edən struktur elementlərinin fəaliyyət səviyyəsindən asılı olduğundan həmin elementlərin hər birinin fəaliyyət nəticələri dərindən təhlil olunmalı, onların hər birinin iqtisadi inkişafa təsiri və bu sahədə rolu müəyyənləşdirilməlidir.

2. Dissertasiya tədqiqatı zamanı aparılan təhlil və tədqiqatlar vasitəsilə Mərkəzi Bankın fəaliyyətinin çoxsaylı parametrləri həm nəzəri, həm də metodoloji cəhətdən nəzərdən keçirilmiş, təhlil edilmiş və böhranla bağlı problemlərin həlli yolları müəyyən edilmişdir.

3. Tədqiqatla sübut olunmuşdur ki, Mərkəzi Bank iqtisadi inkişafda xüsusi rol oynayan bir iqtisadi orqan olmaqla pul vəsaitləri ilə bağlı bütün əməliyyatları həyata keçirir. Mərkəzi bankların fəaliyyətinin təşkilinin metodoloji məsələlərinin ən vacib elementləri olan bank biznesinin və bank bazarının formalaşdırılması, təşkili, idarə olunması və bu fəaliyyət növünün tənzimlənməsinin ən zəruri üsul və formaları tədqiq olunmuşdur.

4. Tədqiqatla sübut olunmuşdur ki, fəaliyyətdə olan bütün iqtisadi sistemlərin həm maliyyə, həm büdcə, həm vergi, həm gömrük, həm Banksistemi və ümumiyyətlə, bütün iqtisadi struktur və subyektlərin fəaliyyəti özünün normativ-hüquqi bazasından asılıdır.

5. Azərbaycan Respublikası Mərkəzi Bankının xarakterinin və onun valyuta, pul və məzənnə siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və Mərkəzi Bankın iqtisadiyyatın idarə edilməsindəki rolunun qiymətləndirilməsi üçün tərəfimizdən Mərkəzi Bankın iqtisadiyyata təsir vasitəsi olan məzənnə siyasəti, uçot faiz dərəcələri, orta depozit fond dərəcələri, orta kredit faiz dərəcələri, məcburi ehtiyat normaları, pul aqreqatları, açıq bazar əməliyyatları, inflyasiya və s. son 5-6 ilin göstəriciləri əsasında geniş təhlil edilmiş bu təsir vasitələrinin ölkə iqtisadiyyatına verdiyi nəticələr illər üzrə müqayisə edilərək onların yaratdığı inkişaf meyilləri müəyyən edilmişdir, dəyərli təkliflər verilmişdir.

6. Bank sisteminin davamlı inkişafı təmin edilmiş, milli valyutaya etibar yüksəlmiş, ölkədə biznes dairələrinin və ev təsərrüfatlarının sərfəli şərtlərlə kredit əldə etmək imkanları genişlənmiş, məzənnə və qiymət sabitliyi təmin edilmiş, maliyyə sabitliyi qorunmuş və ümumilikdə iqtisadi aktivlik yüksəlmişdir. Mərkəzi Bankın iqtisadiyyatın idarə edilməsində müxtəlif istiqamətlər üzrə apardığı siyasətin və həyata keçirdiyi tədbirlərin qiymətləndirilməsi geniş şəkildə aparılmış və dəyərli təkliflər verilmişdir.

7. Tərəfimizdən aparılan təhlil və qiymətləndirmə göstərir ki, Azərbaycan Respublikasının Mərkəzi Bankı ötən illər ərzində səmərəli, iqtisadi mühitin tələblərinə cavab verən və çevik pul siyasəti həyata keçirərək maliyyə sabitliyinin təmin edilməsində əhəmiyyətli rola malik olmuşdur. Mərkəzi Bank neft gəlirlərinin neqativ təsirlərinin qarşısını uğurla ala bilmiş və qiymət artımı üzərində nəzarəti səmərəli şəkildə həyata keçirərək onun məqbul səviyyədə saxlanılmasına və bununla da ölkə iqtisadiyyatına olan inamın artmasına, investisiya mühitinin yaxşılaşdırılmasına, ölkə iqtisadiyyatının cəlbediciliyinin artırılmasına nail olmuşdur. Tərəfimizdən aparılan tədqiqatla Mərkəzi Bankın rolunun yüksəldilməsi istiqamətləri müəyyənləşdirilmiş, onların iqtisadi mahiyyəti açıqlanmış və dəyərli təkliflər verilmişdir.

8. İqtisadiyyatın idarə edilməsində Mərkəzi bankların dünya təcrübəsinin Azərbaycanda tətbiqi imkanları geniş nəzərdən keçirilmiş, ən zəruri inkişaf parametrlərinin tətbiqi ilə bağlı təkliflər verilmişdir.

9. Ölkə iqtisadiyyatında stabil vəziyyətin perspektivdə təmin edilməsi, da-



vamlı olması üçün bütövlükdə maliyyə bazarında və bank sistemində reallaşdırılması zəruri olan hədəf və prioritetlər müəyyən edilmişdir. Onlara aşağıdakılar aid olunmuşdur: Davamlı inkişafı və stabil iqtisadiyyatı təmin edə biləcək şəffaf və rəqabətqabiliyyətli maliyyə sisteminin yaradılması; Maliyyə bazarının bütün seqmentlərinin dinamikliyinin təmin edilməsi; Maliyyə-bank sisteminin dinamikliyini təmin edən infrastrukturun yaradılması; Stabil inkişafı təmin edə biləcək parametrlərin fəaliyyət və nəzarət mexanizminin təkmilləşdirilməsi və s.

***Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:***


1. И.С.Мирхади. Основы обеспечения устойчивости банковской системы. XI Международная научно-практическая конференция “Государственное регулирование экономики и повышение эффективности деятельности субьектов хозяйствования”. Сборник научных статей. Минск: 2015, с.93-95 (0,375 п.л.)
2. İ.S.Mirhadi. Azərbaycanda maliyyə sabitliyinin təminatında Mərkəzi Bankın rolu AR Təhsil Nazirliyi. Doktorantların və gənc tədqiqatçıların XIX Respublika Elmi Konfransının materialları. Bakı:2015 – səh. 240-242 (0,375 ç.v.)
3. И.С.Мирхади. Методологические основы обеспечения макроэкономической стабилизации путем банковского регулирования. Журнал “Научное Обозрение. Москва: 2016. № 15 – с. 151-154 (0,5 п.л.)
4. İ.S.Mirhadi. Ölkə iqtisadiyyatının idarə edilməsində Mərkəzi Bankın rolu və əhəmiyyəti. AR Maliyyə Nazirliyi “Maliyyə və Uçot” jurnalı. Bakı: 2017, №5, səh. 30-37 (1 ç.v.)
5. İ.S.Mirhadi. Mərkəzi Bankın fəaliyyətinin dünya təcrübəsi. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji xəbərləri. Bakı:2017, № 46, səh.180-187 (0,875 ç.v.)
6. İ.S.Mirhadi. İqtisadiyyatın idarə edilməsində ABŞ mərkəzi bank təcrübəsinin Azərbaycanda tətbiqi imkanları. AMEA-nın Elmi Əsərlər jurnalı. Bakı: 2017, №5, səh.223-228 (0,75 ç.v.)
7. İ.S.Mirhadi. Azərbaycanda stabil iqtisadi inkişafın təmin edilməsində Mərkəzi Bankın fəaliyyətinin qiymətləndirilməsi. AR Maliyyə Nazirliyi “Maliyyə və Uçot” jurnalı, Bakı: 2018, №7, səh.33-39 (0,875 ç.v).

*Исмаил Сурхай оглу Мирхади*

# ПУТИ ПОВЫШЕНИЯ РОЛИ ЦЕНТРАЛЬНОГО БАНКА В СТАБИЛЬНОМ ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ СТРАНЫ

## Р Е З Ю М Е

Цель диссертационной работы - дать научно обоснованные рекомендации по повышению роли Центрального Банка в устойчивом развитии экономики страны. Для реализации этой цели был проведен подробный анализ денежно-кредитной политики, осуществляемой Центральным Банком Азербайджанской Республики за последнее десятилетие.

Диссертация состоит из введения, трех глав, результатов и списка использованной литературы.

Первая глава диссертации называется «Теоретико-методологические основы деятельности Центрального Банка в стабильном развитии экономики страны». В этой главе рассматривается роль и значение Центрального Банка в устойчивом развитии экономики страны, анализируются теории и концепции, лежащие в основе деятельности Центрального Банка. Кроме того, исследование истории центральных банков проводится на примере трех развитых государств, выявляя схожие и разные свойства между ними.

Во второй главе исследования под названием «Современное состояние роли Центрального Банка в стабильном развитии экономики Азербайджана и ее оценка» широко анализируются правовая основа деятельности Центрального Банка Азербайджана, а также международные нормативно-правовые концепции, применяемые в его деятельности. В то же время в целях обеспечения стабильного развития экономики страны проводится детальный анализ и оценка роли и эффективности Центрального Банка с помощью различных денежных показателей.

Третья глава исследования называется «Направления повышения роли ЦБА в стабильном развитии экономики страны». В этой главе даются конкретные рекомендации по повышению роли Центрального Банка в обеспечении устойчивого и стабильного экономического развития. Также, широко анализируются возможности применения мирового опыта центральных банков в Азербайджане и даются рекомендации в этом направлении. В конце главы обосновывается роль «Стратегической Дорожной Карты» в обеспечении устойчивого экономического развития при определенных тенденциях в улучшении финансовых услуг.

В заключении диссертации интерпретируются, полученные в исследовании и приводятся научные выводы соответствующие цели исследования.

*Ismayil Surkhay Mirhadi*

**THE WAYS OF INCREASING THE ROLE OF THE CENTRAL BANK IN A STABLE ECONOMIC DEVELOPMENT OF THE COUNTRY**

## SUMMARY


The purpose of the dissertation work is to provide scientifically justified recommendations to enhance the role of the Central Bank in the sustainable development of the country's economy. In order to realize this goal, a detailed analysis of the monetary policy implemented by the Central Bank of the Republic of Azerbaijan over the past decade has been undertaken.

Dissertation consists of introduction, three chapters, results and the list of used literature.

The first chapter of the dissertation is called "Theoretical-methodological basis of the central bank's activity in the stable development of the country's economy". This chapter examines the role and importance of the Central Bank in the sustainable development of the country's economy, analyzes the theories and concepts that form the basis of the Central Bank's activities. In addition, the study of central bank history is conducted among three developed countries, identifying and distinguishing similarities and differences between them.

In the second chapter of the research, entitled "The current state of the central bank's role in stable development of the economy in Azerbaijan and its assessment", the legal basis of the activities of the Central Bank of Azerbaijan as well as the international normative and legal concepts applied in its activities are widely analyzed. At the same time, a detailed analysis and evaluation of the role and performance of the Central Bank through different monetary indicators is carried out to ensure stable development of the country's economy.

The third and last chapter of the research is called "Ways to raise the CBA's role in stable development of the country's economy". In this chapter, specific recommendations for improving the role of the Central Bank in ensuring stable and sustainable economic development are provided. Moreover, the opportunities of applying the world experience of the central bank in Azerbaijan are widely analyzed through the US Central Bank and recommendations are provided in this direction. At the end of the chapter, the role of the "Strategic Road Map" aimed at sustainable economic development through an improvement of financial services is emphasized.

The esults obtained at the end of the study are logically interpreted and summarized according to the purpose of the research.





Formatı 60x84 1/16. Həcmi 1 ç.v.
Sifariş 433. Ofset kağızı №1. Sayı 100.

"AA - Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilnişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ИСМАИЛ СУРХАЙ оглу МИРХАДИ**

# ПУТИ ПОВЫШЕНИЯ РОЛИ ЦЕНТРАЛЬНОГО БАНКА В СТАБИЛЬНОМ ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ СТРАНЫ

Специальность: 5301.01 - «Внутренняя фискальная
политика и государственные финансы»

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание научной степени
доктора философии по экономики**

**БАКУ - 2018**